*Fərəcova Sümuzər Səyyad qızı, baş müəllim,*
*Əliyeva Fəridə Azər qızı, magistrant,*
*Azərbaycan Texnologiya Universiteti,*
*Email: r.asgerova@uteca.edu.az*

# QƏRBİ AVROPA VƏ ŞƏRQ ÖLKƏLƏRİNİN GEYİM VƏ MODA İSTİQAMƏTLƏRININ ƏSAS XÜSUSİYYƏTLƏRİNİN ANALİZİ

Məlum olduğu kimi, moda dövrü surətlə hərəkət edir, geyimin bir forma və növlərinin əvəzinə digərləri gəlir. Yeni hər bir artıq mövcud olanlardan irəli gəlir. Belə təsəvvür yaranır ki, yenicə düşünülüb tapılmış üslub əvvəlki dövrlərin emal edilmiş və yenilənmiş üslubundan ibarətdir. Yeni kolleksiyaların yaradılması zamanı modelyer kostyumu tarixinə müraciət edir və bunun sayəsində əvvəlki dəyərlərdən ilham almağa, eləcə də bəşəriyyət üçün nə isə yeni bir dəyər kəşf etməyə çalışır. Məhz bu səbəbdən müxtəlif tarixi dövrlərə aid olunan kostyumların araşdırılması bu dərəcədə aktualdır.

Hələ XVII əsrin sonlarında XVIII əsrin əvvəllərində yaşamış və fəaliyyət göstərmiş məşhur ingilis filosofu Entoni Eşli Kuper, lord Şeftsberin müəllif olduğu “Sensus Comnius”, yaxud “iti zəka və müstəqil əhval azadlığı haqqında təcrübə” əsərində yazırdı: “Zaman keçdikcə insanlar öz zahiri görkəmlərini başqa cür etməyi özləri üçün əbədi hesab etməyə başladılar”.

Moda – bu ətraf gərçəkliyin müxtəlifliyinə və yeniliyinə olan insanın daimi tələbatı ilə bağlı müəyyən formaların qısamüddətli hökmranlığıdır. Kostyumda moda xüsusi ilə nəzərə çarpacaq dərəcədə və fəal surətdə özünü büruzə verir. İnsanın zahiri görünüşü ilə bütünlüklə birləşərək, kostyum həcmli, müstəvi və xətti formaların daha tez-tez baş verən dəyişikliyinə məruz qalır. Modanın tarixi geyimin tarixində olduğu kimi qədimdir. Ətraf mühitin, təbiətin əlverişsiz təsirlərindən bir müdafiə olaraq geyim əşyalarının mahiyyətini özü üçün kəşf etdiyi andan etibarən, insan həmin geyimin estetik və üslublaşdırıcı funksiyası barədə düşünməyə başladığı vaxtlardan qısa zaman kəsiyi ayırırdı. Heç şübhəsiz, geyim belə bir obyekt qismində meydana gəlmişdir ki, insan burada özünün malik olduğu bədii dünya görüşünü daha aşkar surətdə və birbaşa həyata keçirmək imkanını əldə etmişdir. Beləliklə, insanın geyimi – bu qətiyyən onun qısası, zahiri əlaməti yaxud təsadüfi mövcud olmayan bir əlavəsi deyil, insanların əhatəsində olan bütün digər maddi dəyərləri ilə müqayisədə geyim daha yüksək dərəcədə insanın, insanlar qrupunun, bütövlükdə millətin, yaxud ümumilikdə bir dövrün fərdi mövcudluğunu birbaşa və ifadəli rəmzi kimi dəyərləndirilməlidir.

Tez-tez baş verən səyahətlər, ticarətin inkişafı, ölkələr arasında ticarət əlaqələrinin qurulması kifayət qədər güclü qarşılıqlı təsirlərin formalaşmasına, məişətin, zahiri formaların iqtibas edilməsinə əhəmiyyətli dərəcədə kömək edirdi. İntibah dövrünün Avropa ölkələrində istifadə olunan geyimlərin formalarında yaxınlaşma ənənələrinin baş verməsində modanın sürətlə yayılması mühüm və həlledici rol oynamışdır. İnkişaf etmiş orta əsr dövründə meydana gələn moda ümumi bədii üslub çərçivəsində müəyyən formaların qısa müddətli hökmranlığı kimi təkcə ölkələr daxilində deyil, həm də onların hüdudlarında kifayət qədər uzaq ərazilərdə də ən müxtəlif formalarda yayılmağa başlayır. Almaniyanın Anqasburq şəhərində Şvarts soyadlı tacirlər həyatlarında istifadə etdikləri bütün kostyumlarda özlərinin akvarellə işlənilən portretlərini sifarişini verirdilər.

Beləliklə 1562–ci ildə dünya xalqlarına məxsus milli kostyumların rəsmləri nəşr olunur.

İtaliyada yaşamış Çezare Veçellio bütün Avropa ölkələrində fəaliyyət göstərən naxışbasanlar tərəfindən istifadə olunan krujevalar üçün modellər toplusunu nəşr etdirir. Modanın yayılması istiqamətində müxtəlif formaların mövcudluğu fərqli-fərqli xalqlara məxsus geyimlərin təsir dairəsinin və gücünün artırılmasına və onların digər ölkələrdə istifadə olunmasına kömək edirdi.

Bununla əlaqədar XVI əsrdə Fransada yaşamış və fəaliyyət göstərmiş yazıcı Rable yazırdı ki, fransız qadınların şlyapaları yalnız qışda fransız olur, yazda onlar artıq ispan, yayda isə italyan mənşəlidir.

İspan kostyumu Qərbi Avropanın, demək olar ki, bütün ölkələrində mövcud olmuş moda ənənələrinə və istiqamətlərə kifayət qədər ciddi təsir göstərmişdir. Yalnız italyanlar ispan modasının təsirindən yayına bilmişlər, çünki ispan modasının bütün qəribəliklərini kortəbii təqlidçiliyindən onları bir çox incəsənət növlərinin müsbət təsiri qoruya bilmişdir.

XV–XVI əsrlərdə həm ispan kostyumunun formasına, həm də ümumilikdə İspaniyanın incəsənətinə çoxlu sayda tarixi və ictimai amillər təsir göstərirdi. Kişilərdə mülki kostyum – üst gödəkcə və şalvar pambıq, at tükü ilə düymələnir, quru ot doldurulur. Hamar yaxud tikmənaxışlı, zinət əşyaları və kiçik ölçülü qiymətli məmulatlarla

bəzədilmiş parça sırınmış astar parça üzərinə dartılaraq öz plastikliyini və hərəkətliliyini itirir. Açılan büzmə ilə qısa gödəkcə dəmir moda geyimə bənzəyirdi.

İspan qızı köynək və iki paltar geyinirdi, altdakı kofta dar bu qollara malik idi, üstdəki isə qolsuz yaxud enli qısa qollu idi, bel xəttindən başlayaraq aşağıya doğru açıq idi. Kişilərin istifadə etdiyi kostyumlarda da olduğu kimi, genişləndirilmiş qollar valiklərlə bəzədilirdi. İspanların estetik təsəvvürlərinə görə və qəddi – qamətli qadın fiqurası ideal hesab olunurdu.

Beləliklə, qeyd etmək lazımdır ki, intibah dövründə İspaniya geyimləri özünə məxsus orijinal və bənzəri olmayan inkişafa malik idi, onun formasına isə bir sıra amillər – döyüşkən cəngavərliyin idealları, katolik kilsənin fanatikcəsinə asketizmi və bu kimi digər faktorlar təsir göstərirdi. İtalyan geyimindən fərqli olaraq, burada kostyumun kompozisiyasında daha az sərbəstlik mövcuddur. Xətlər ciddi və təvazölüdür. Bədən proporsiyalarını maksimum dərəcədə gizlətmək istəyi açıq – aydın özünü büruzə verir.

İspan modası üçün yuxarıya doğru bağlı və qabaqdan düymələnən kişi gödəkcəsi səciyyəvi xarakter daşıyırdı. Gədəkçənin qabaq tərəfində dar ətəklər var idi, dik yaxalıq belə bir qaydada hazırlanırdı ki, boyunu tamamilə əhatə etsin və köynəyin üst qırağı qalxaraq kiçik sərt jabolar kimi görünürdü.

XVI yüzilliyin əvvəllərinə yaxın Fransa, bütün digər Avropa ölkələri ilə yanaşı, İtaliyadan kifayət qədər böyük həcmdə dəbdəbə əşyalarını idxal edirdi. Tamamilə aydındır ki, həmin ölkələr kostyumun italyan tərzinin kübarlığı təsiri altında idi. XVI əsrin sonuncu rübündə ispan modasının bir nəticəsi olaraq marlott deyilən üst geyim əmələ gəlmişdir. Bu qısa qollu düz paltar idi, onu rob – libasın üzərinə geyinirdilər, çiyinlərindən zınqırovşəkilli forma ilə düşürdü. Marlot təntənəli mərasimlər üçün nəzərdə tutulmuş bir geyim idi.

Yekun vuraraq qeyd edə bilərik ki, XV-XVI əsrlərdə Fransada əhali arasında istifadə olunan kostyum bir tərəfdən italyan, digər tərəfdən isə ispan kostyumunun təsirinə məruz qalırdı.

Ümumilikdə dövrün modasını və kostyumun formasını araşdıraraq bir ayrı-ayrı ölkələrdə mövcud olan moda istiqamətlərinin xüsusiyyətlərini, onların bir-birinə təsirlərini əks etdirdik. Onların hər birində ümumi cəhətlər yer alır, lakin eyni zamanda müəyyən fərqlər də əks olunur. İtalya, İspanya, Fransa, İngiltərə və Almaniyanın modasında müşahidə olunan fərqlər məhz sosial, təbii və iqtisadi şəraitlə şərtləndirilir.

Şərq ölkələrinin geyim tərzləri də öz xarakterik cəhətləri ilə fərqlənir. Üslubun geniş anlayışı özündə müxtəlif ölkələrin kostyumlarının elementlərini ehtiva edir. Bura Çin, Hindistan, Vyetnam, Filippin, Sinqapur və bir çox digər ölkələrin geyimi aid edilir. Şərq üslubunda hazırlanmış Avropa kostyumu müəyyən xalqın yaxud millətin ənənələrini əks etdirən cəhətlərə malik deyil. Bu kifayət qədər unikal bir hadisədir və müxtəlif etnosların dəbli ideyalarını və səciyyəvi əlamətlərinin simbiozunu təşkil edir.

Müasir obrazlar incəlik və zərifliyin, zənginlik və yüngüllüyün parlaq şəkildə ifadə olunan cizgiləri ilə fərqlənir. Şərq kostyumları – yumşaq və həyəcanlı şəkildə, belə demək mümkündürsə, xəfif axan bahalı və dəbdəbəli parçalar deməkdir.

Şərqin gündəlik geyim üslublu aktual yönəmli modellər üçün düz xətlərə malik sadə fasonlar xarakterikdir. Geyimdə heç bir dekolte olmur, yalnız kiçik sadə kəsik yaxud tam qapalı dik yaxalıq. Geyimin uzunluğu mütləq şəkildə dizləri örtür.

Hindistanlıların ənənəvi geyimi olan sarini çox asanlıqla təkrarlamaq olar, bu məqsədlə moruq yaxud albalı rəngli parlaq gül – çiçək kompozisiyalarla bəzədilmiş nazik və yüngül libası geyinmək kifayətdir.

Ərəb geyiminin pərəstişkarlarına aşağıya doğru genişlənən, pastel çalarlı qapalı və uzun paltarlara diqqət yetirmək məsləhətdir. Sözü gedən bu modelləri koloritli qollar və lif üzrə yerləşən ornomentlər bəzəyir. Kostyumda şərq mənsubiyyətinə eyham vuran kiçik ləkə - aksessuarların – print edilmiş boyun dəsmalların, nazik şərflərin, qalstukların olması mümkündür. Dəbli üsluba şübhə yaratmayan aşkar mənsubiyyəti geniş şalvarların köməyi ilə diqqət mərkəzinə gətirmək mümkündür. Olduqca maraqlı modelləri Orta Asiya, Balkan, Yunanıstan, Yaxın və Uzaq Şərq, Hindistan, Çin, Yaponiya xalqlarının milli kostyumlarında tapmaq olar.

Şərq motivlərindən başqa heç bir başqa üslub o dərəcədə maraq oyadıcı və sirli bir obraz ərsəyə gətirmək iqtidarında deyil. Bu məqsədlə qapalı tünd rəngli paltar geyinmək və qara maddə ilə gözləri çəkmək qətiyyən lazım deyil.

Hind üslubunun xarakterik cəhəti geyimdə asimmetrikliyin mövcudluğu hesab olunur. Qədim zamanlardan bəri hind üslubu üçün xarakterik olan iki şey bu günümüzə gəlib çatmışdır. Sari və kamiz şalvarı. Sari – sərbəst uzun dondur, onu ənənəvi üsulla tikmirlər, sadəcə parçanın uzun hissəsindən kənarlar emal edilmək şərti ilə yaradırlar. Şalvar kamiz – geniş şalvardan və uzun tunikadan ibarət komplektdən təşkil olunur. Şalvar da çoxlu sayda büküklərə malikdir ki, onlar sərbəst siluet yaradaraq aşağıya doğru daralır.

Qərbi Avropa və Şərq ölkələrinin geyim və moda göstəriciləri həm dəbli, həm də bununla bərabər, milli kostyumun orijinallığını və bütün xüsusiyyətlərini qoruyub saxlamağa qadir olan Qərb və Şərq geyimlərinin birləşdirildiyi kolleksiyanın yaradılması bu fəaliyyət istiqamətində çalışacaq dizaynerlərdən dəbin müasir tendensiyaları sahəsində bilgilərin ortaya qoyulmasını və onların inkişaf etdirilməsi məsələlərində intuisiyanın olması zəruriliyini deyil, həmçinin üslublaşdırılma ilə bağlı peşəkar bilik və səriştələrin mövcudluğunu da tələb edir.

Şərq üslubunda hazırlanmış libaslar xüsusilə dəyərlidir, çünki burada sözün əsl mənasında böyük bir sivilizasiya, nəhəng bir dünya öz əksini tapır, həmçinin bu, modelyerin və dizaynerin fantaziyasını təcəssüm etdirən əsl şedevr, şah əsəridir. Şərq üslübunda hazırlanmış həddindən artıq paltar və belə demək mümkündürsə, hətta müəyyən qədər rüsvayçı geyim məmulatları planetimizin hər bir guşəsində pərəstişkar qadınları tapa bilir. Şərq üslubunda hazırlanmış paltar nümunələri nədən ibarətdir? Bu gün dizaynerlər tərəfindən siması yenilənmiş və dəyişdirilmiş, Hindistan, Yaponiya kimi Şərq ölkələrini təmsil edən libaslar şərq üslubunun geyim nümunələri kimi təqdim edilir. Onun hazırlanması üçün materiallar, naxışlar və səciyyəvi şərq elementləri tətbiq olunur.

Müasir dövr şərq geyimlərində zənginlik lüks göstəricisi Şərq üslubu, Şərqin cazibəsi – Mərakeş və Hindistan geyim tərzləri və sirli Misir və Bohem tərzi öz göstəriciləri ilə daha qabarıqdır. Sirli və dəbdəbəli Şərq üslubunda bir çox müxtəlif dəb meyliləri vardır. Onların hər biri müəyyən bir ölkəyə xas, nadir milli adət-ənənələri ilə səciyyələnir. Xüsusən XX əsrin II yarısından əsrarəngiz Şərq meyllərinin aristokratik Avropaya yaxınlığı moda dünyasında rəngli və ahəngdar cərəyanın meydana çıxmasına səbəb olmuşdur.

Şərqdə nə qədər də milli ruhlu geyim növlərini saxlanılsa belə, Qərb və dünya moda sferasındakı dəyişikliklər cəmiyyət tərəfindən qəbul edilir. Qərbdə yunan üslublar, moda sahəsində baş verən yeniliklər Şərqdə böyük məmnuniyyətlə qəbul edilirsə insanlar şərq geyimlərinə heyranlıqla maraq göstərirlər və etnik üsluba üstünlük verirlər. Bu isə iki böyük mədəniyyətin qarşılıqlı təsirinə səbəb olur.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Дж. Брешня. Измените свой гардероб, чтобы изменить свою жизнь. М:. Феникс, 2015.
2. Марии Ф. «История моды.100 платьев, изменивших вес мир» М:. Азбука, Колибри, 2015.
3. Н.Найденская, И.Трубецкого «Мода». Цвет и стиль. М:. Экса, 2011.
4. Влиранд Т. Молодежь об искусстве, Таллин, Изд: Кунст, 1990.
5. Дзеконьека – Козловская А. Женская мода. XX веках. М:. 1997.